# FİKRƏT SADIQ

# GÖYDƏN ALMA DÜŞMƏDİ



GƏNCLİK

BAKI-1982

# TORPAQ NAĞILI

## TORPAQ NAĞILI

Torpaq, topraq, toparaq.
Top kimidi  yuvarlaq.
Bu topun üstündə biz
Möhkəm durmuşuq, ancaq.
Bu topun hər yerində;
Səfalı kəndlərində,
Abad şəhərlərində
Yuva qurmuşuq, ancaq.
Nə yuxarı var onda
Nə aşağı var onda
Top boyunca toplaşan
Gün işığı var onda.
Torpaq, topraq, toparaq.
Görən yaranıb haçaq?!
Bəlkə milyon il qabaq,
Bəlkə milyard il qabaq;
Böyük tufan qopubmuş—
Sarı ulduz tufanı.
Ucsuz-bucaqsız göyün
Qara lağımlarını
Bürüyübmüş ağ duman.
Fikirliymiş kainat,
Qarışıbmış kəhkaşan.

Cazibəyə qalıbmış
Son ümid, axır güman.
Torpaq, topraq, toparaq
Tufan çəkib göyə dağ.
Ulduzların çoxusu
Düşüblər pərən-pərən
Yorulublar, küsüblər
Mavi göyün üzünə
Səpələniblər dən-dən.

Torpaq, topraq, toparaq
Ulduzlar düşüb qaçaq.
Ana günəş qorxudan
Top kimi toppuş, şıltaq
Doqquz süd körpəsiylə
Ulduzlardan ayrılıb-...
Süd yolunun üstündə
Özünə məskən salıb...

Torpaq, topraq, toparaq
Topa buludları ağ
Cazibənin qurduğu
Tora düşüb o çağdan
Asılıb saçaq-saçaq.
Günəşin tellərindən
Torpaq, nur əmə-əmə
Böyüyüb yaşa dolub.
Dünyanı əllərində
Saxlayacaq dev olub!
Dənizlərə, çaylara
Heyvanlara, quşlara

İnsanlara ev olub..-
İndi göyə nur yağır,
Yerin əməllərindən
Meyvəli bağlarından
Çörəkli çöllərindən.

Torpaq, topraq, toparaq
Sən bunun boyuna bax!
Gecə-gündüz fırlanır
Anasının başına
Yoruldum demir heç vaxt.
Günəşə yaxın dursa,
Od tutub yana bilər.
Günəşdən uzaqlaşsa
Buz tutub dona bilər.
Bilir yerini qoçaq.-.
Tapıb yerini qoçaq...

Torpaq, topraq, toparaq,
Qaçma belə çaparaq.
Günəşin qızıl topu—
Bizim Yerimiz Topraq.
Eşit, sənin üstündə
Səni qorumaq üçün
Əsirik yarpaq-yarpaq.

Torpaq,topraq, toparaq
Gəlin haray qoparaq,
Topdan, top gülləsi yox
Göyərçin uçsun göyə

Göyərçin uçsun, ancaq
Ağca,ağşın, ağappaq.

Torpaq, topraq, toparaq
Duman keyinmiş yumaq.
Yumru, yumru, yumruca!
Ucalır uça-uça
Ucaldıqca kerünür
Uzaqlardan yumruqca.
Bu yumruqca dünyanı
İnsan qaldırıb indi
Göyün özündən uca.

## BAL DADAN BALIŞ

Allı-güllü nağıldır,
Mənim ipək balışım.
Balışım bal dadır ki,
Yuxuma bal qarışıb.

Qu tüküdür yupyumşaq,
Yünküldür suda batmaz-
Astarı tük keçirtməz,
Üzü sumağı atlas.

Ana-bala butalı
Balış üzünə bir bax!
Qırçın-qırçın kəməri
Qardan təmiz, süddən ağ.

Balışımı kəsibdir.
Kənddəki bibim mənim.

Sevincimdən uçuram,
Quş olub qəlbim mənim.

Gül—bibimin payıdır,
Mənim ipək balışım
İndi bildim ki, niyə
Yuxuma bal qarışıb.

## AYDAN

Aydan dedi:
Mən Aydanam
Məni Aydan
Alıb anam.
Mən baxanda
Ay top olur.
Dolu olur.
Yumru olur
Baxmayanda
Ay saralır,
Para olur,
Yarı odur.

Hamı ona
İnandı;
Aydan, axı
Aydandı.

### ƏLİFBA DƏRSİNDƏ

Baş açmıram bu işdən
Çaşıb qalmışam düzü.
Anama oxşayır lap.
Yazdığım «ana» sözü.

Bu bir «a», bu da bir «a»
Anamın iki gözü-
İki «a» arasında.
«N» da anamın üzü.

### RİYAZİYYAT DƏRSİNDƏ

—Uşaqlar, bu çevrəni
Bütün vətərləriylə
Kim köçürər lövhəyə
Elə-beləcə düzgün?
—Müəllim,
Mən deyim.
—De!
—Güzgü!

## Kilimçi

Kilimçiyəm, kilimçi
Biliciyəm, bilici
Gecələr yatmıram
Oyaq qalıram.
Daşdan,
Otdan,
Kökdən,

Boyaq alıram.
Gildən,
Misdən,
hətta
hisdən
Boyaq alıram,
Ağ,
Qara,
Yaşıl,
Al
Böcəkdən
Boyaq alıram.
Ağacdan,
Yarpaqdan,
Çiçəkdən
Boyaq alıram.
Görəsən
Bunlarda,
Bu qədər
Boyaq hardan?!
Bunlar, demə,
Zərrə-zərrə,
İynə-iynə
Yığılmış
Günəş nurudur-

Torpağa,
Yarpağa,
hopub durur.
Bir bəri gəl,
Cıqqılı!

Gəl, gör sənin
Köhnə-köşkül
Yumaq topun
Bir də
Təzədən
Toxunub,
Közənib,
Bəzənib
Düzənib
Gör nə gözəl
heybə olub.
Bir ömür boyunca
Top-top oynamaq olmaz.
İndi də
Çiynində
heybə gəzdir bir az!
Top nədir
Bir əyləncə!
Top nədir.
bir oyuncaq!
Bəsdir oynadın, qoçaq!
Narıncı olsun!
Al, bu da əməköməci,.
Civcilim,
Yemlik,
Turşəng
Qoy heybənə—
Yaşıl olsun!
Al bu da
Bir qismət çörək

Qoy heybənə—
Sarı olsun!
Al bu da
Bir dəstə çiçək
Qoy heybənə—
Sənin olsun!
Al bu da
Bir sovça bulaq suyu
Qoy heybənə—
Sərin olsun!
Bunları
Çiynində
Gəzdirən
Doğrudan da
Xoşbəxtdir ki!
Dayan, dayan
heybənin
Bir gözü
Boş qaldı ki?
Bu gözə də
Kitab, yığılsın gərək,
Kitab, kitab!
Bu Ana dili,
Bu hesab- Bu da ulu,
Babaların ruhu—
Alp ərlərin uğuru
Dədə Qorqud,
Koroğlu.
Bunları da
Qoy heybənə,

Bir ömür boyu
Yoldaş olsunlar sənə!
Ömrün boyunca,
Gör-götür,
Oxu, ucal!
"Məni də unutma
hərdən-hərdən yada sal.
Kilimçi babayam.
Kilimçiyəm, kilimçi
Biliciyəm, bilici.

## ÜÇ QARDAŞIN BİR BACISI

Tək bacıyam,
Üç qardaşım var mənim;
Məlik Məmməd,
Məlik Əhməd
Məlik Cümşüd.
Nar ağacıyam
Üç sirdaşım var mənim;
Çinar,
Palad,-
Şahtut.

## BALACA ANA

Qardaşları
ona,
«Balaca ana»

deyir.
«Balaca ana
su ver!»
«Balaca ana
çay ver»-
İndi ki anasan
hay ver
Səni çağırana.
Gərək ananın
Övlada
Canı yana.
Hər səhər
Qardaşlarını
Gülə-gülə
Məktəbə
Yola salır.
Evdə tək qalır.
Yuyur qab-qacağı,
Çənkəl-bıçağı.
Üç göy nəlbəkini,
Üç güllü fincanı.
Yorulsa da
Almır dincini.
«Axı «qaqaş»larım
Gəlib, inciyər!»
Axşam hərə
Gedir bir yana,
Evdə darıxır
Balaca ana-
—«Mən kinoya gedirəm!» —

«Mən futbola!» —
«Mən üzməyə!»
Heç biri
aparmır
Onu gəzməyə.
Deyirlər,
«Balacasan hələ». —
Daa, balaca ana
        deyiləm?

        —Yox, balaca anasan,
        amma, səhərlər!

Sabah səhər
Gün təzələnir,
Yada salmır,
Heç kəs dünəni

Balaca Ana
          çoxdan
          unudub
          olub kecəni.
Yatmayıb,
Oyaq qalıb
Bütün gecəni
«Qaqaş»larının
Üstünü örtüb.
Anaları
Dünyada
Hər zaman

belə gördüm.

**BİR QUTU NOĞUL**

Məni uşaq
Bağçasına
Çağırdılar.
Şe'r deyəm-
Bir də gördüm
Doğrudan
Gül içindəyəm.
Bağça canlı
Bağça imiş...
Bu kəlməni
İlkin-əvvəl
Kim deyibsə
Doğru demiş...
Canlı güllər
Gül əllərdə
Gül tutmuşdu.
Mən də insan
Olduğumu
Unutmuşdum.
Bu güllərin
Arasında
Elə bildim.
Mən də güləm.
Dinib-danışmaq
istədim
Susdu şerim,
Sındı kəlməm.

Düzü dedim,
Yalnız bircə
Misrasını
Gözləməyib,
Sonrasını
Bağçadan
Ayrıldı
Üç gül;
Aytən;
Aysel,
Aygün—
Üç ay üzlü qız
Üç dəstə nərgiz
Bağışladılar
Bir misrama.
Mən də durub
Qızların
Birinə,
Deyəsən,
Ən kiçiyinə—
Aysələ,
Bir qutu
Noğul verdim,
Təzətər
Nərgizlərə
Əvəz saatca
Peşman oldum.
Ürəyimdə
pıçıldadım
«Birdən Aysel

Qızlara Pay verməz?»
Dərd oldu.
Mənə noğul-
İndi, oğul
İstəyirəm oğul.
Yuya bir şirin
Günahı
Böyük bir –
Sınağa
Çəkdim uşağı.
Qopdu dodağımdan
İkinci misra.
Sonra
Gözüm sataşdı
Yenə noğul Qutusuna.
Yenə qırıldı şe'r.
Aysel,
Əvvəlcə bir-bir
Noğulları saydı
Gözüm onda idi-
Sonra saydı
Uşaqları;
Aytən,
Aygün
Sevər,
Toğrul,
Hərəyə beş noğul!
Elçin,
Gülçin

Aydın,.
Günay,
Hərəyə bir pay!
Böldü
Ata malı kimi,
Uşaqların
Sayı qədər.
Mən də birtəhər
Üçüncü,
Dördüncü,
Beşinci,
Misranı
Deyirdim.
Uşaqlar
Qulaq asmırdı,
Noğul yeyirdi.
Noğul şe'rdən
Dadlı idi.
Kəsib şe'rimi
Aysela «oğul»—dedim.
Gül balalara
«Sağ ol»—dedim.
«Sizi mənə
Yaxşıcana
Tanıtdı
Bir qutu
Noğul»,—dedim.

## AYSEL KƏNDDƏ

Ay uşaq
Elçin
Gülçin,
Aysel
Bura gəlin,
Çırpı yığın,
Daş gətirin,
Saç asaq!»

«Ay uşaq;.
Hanı oxlov,
Hanı dördayaq
Hanı göy nimdər
Hanı tabaq,
Hanı sini,
Güllüsünü.
Tap göndər».

«Aaz, Nisəbəyim
Xəmir acıyıb,
Uşaqlar acıb,
Gətir sacı».

Elçin,
Gülçin,
Bir də
Nisəbəyim,
Deyə-gülə
Yeyin-yeyin,
Qaça-qaça

Daşıdılar;
Oxlovu,
Dördayağı,
Sacı,
Qabağı
Gətirildi
Güllü sini,
Sinilərin
Ən güllüsü.
Süpürüldü
Sacın yeri
Göy çəmənə
Salındı,
Nənənin
Göy nimdəri-
Üst-üstə
Yığıldı
Üç qalaq
Çırpı.
Aysel də
Gəzib həyəti,
Üççə daş
Tapıb ,
Gətirdi.

«Bu daş
Burda dursun
Baxaq,
Bu daşı
Bu küncə
Qoyaq,

Bu daşı da bura
Olsun sacayaq!»

Nənənin
Əlində
Ərsin,
Əyildi
Tabağa
Xəmir kəsdi.
Kündələdi,
Silllədi
Atdı dördayağa.
Sonra kündəni.
Oxlovnan yaydı
Bir əlcə kündə
Göz önündə
Böyüdü-böyüdü
Oldu
Dördayaq boyda
Elə ağdı ki,
Elə yumrudu ki,
Elə bil Aydı,
Bapbalaca Ay.

«Ay,
Nisəbəyim,
Sacın
Altını qala.
Elçin,
Gülçin
Siz bu yana

Keçin.
Sən də
Çəkil dala
Ay  mənim
Aysel balam».

Çırpı
Od aldı
Çaqqaçaqla
Çatırdadı.
Od,
Dil  çıxarıb
Qalxdı yuxarı-
Alov dilləri
Yaladı
Daşları.
Birdən
Laş  qaçdı,
Sac  aşdı.
«Bıy, başıma xeyr,
Aaz daş yeriyir!»
Hamı baxıb
Gördü ki,
Doğrudan da
Daşın biri
Yavaş-yavaş yeriyir.
«Bu daş deyil
Bağadı».
«Yoxsa Aysel
Çağadı.

Ayırmır
Daşı bağadan?»
«Bilməyənə
Gülməz adam»
Bura Şirvan
Düzüdür.
Aysel şəhər
Qızıdır,
harda görüb
Bağanı
Şəhərdə
Bağa hanı?
Soruşdu
Yer-yerdən,
Elçin,
Gülçin
Bir də
Nisəbəyim.
«Aysel
Bağa
görməyib,
Bəyəm?»
Görməyib,
Əlbəttə.
Aysel
Haçaq
Olub kənddə.

Bağa
Uzaqdan
Qanrılıb

Geri baxdı.
Aysel qorxdu-
Toppuş
Əlləriylə
Örtdü üzünü.
Danladı
Öz-özünü.
Beləcə
Donub qaldı
Bir hovur
Peşman
olanlar,
Belə olur.
Elə ki,
Açdı gözünü
Dürməc
Verdilər ona.
İş yoluna
Düşmüşdü
Daş da
Tapılmışdı,
Yuxa da
Bişmişdi.
İsti dürməcdən
Nehrə yağı
Axa-axa
Aysel qaldı
Baxa-baxa
«Görən yuxa
Yeyirmi bağa,

Qayıtsın
Yanıma,
Dürməç
Payımı
Verim ona».

Aysel
Qaldı bağadan
Nigaran
Getmədi
Sacın
Yanından.
Baxdı
Bir göz
Qırpımında
Xal-xal olan,
Sac əppəyinə.
Baxdı
Nənənin
Cod əllərinə.
«Gör necə
Sallanır
Oxlovdan
Aypara—yuxa.
Gözbağlıça
İdi sanki
Görəsən
Yanmadı ki,
Bağa?»

Nənə yuxa
Bişirməkdə
Aysel fikirdə
Elçin,
Gülçin,
Bir də
Nisəbəyim
Yuxaları
Güllü siniyə
Yığmaqda
Olsunlar-..
Biz keçək
Qonşu bağa
Görək orda
Nə var.
Demə
Bizdən əvvəl
Yarıb çəpəri
Gəlib
Anasından
Soruşub bağa.
«Ana, mən heç
Daşa oxşayıram?
Ana bağa Belə deyib,
Çağa bağaya.
«Əziz balam,
Bil, agah ol!
Təbiət özü
Qəsdən bizi
Oxşadıb

Daşa,
Bəlkə düşmən
Görüb çaşa
Yan keçə. «
Belə de!
Bəs, onda
Niyə mən
Küsüm
Ayseldən».
«Di,
Durma gedib
Aysellə de,
Təsəlli üçün
Sən də—
Bu sözü»-

Sözün düzü
İndən belə
Aysel
Tez-tez
Gələcək
Kəndə-
Barışacaq
Daş bildiyi
Bağa ilə
Bağanın
Acığı ha
Tutmur Aysələ.

## GÖYDƏN ALMA DÜŞMƏDİ

***(Müasir nağıl)***

***I***

Biri vardı, biri yoxdu,
Danışılası sözüm çoxdu.
Qışdan yaya keçhakeçdə:
Bu il bağa köçhaköçdə
Türkana bir uşaq kəlib.
Türkana bnr qonaq kəlib.
Bəlkə sehrlidir o da
Bəlkə o da nağıldandır.
Lovqalanır orda-burda.
Soyadını demir, danır
—Öz adını söylə barı!
—Öz adım Özüm!
—Heç Özüm də ad olar?
—Var!
—Elə mən özüməm Özüm!
—Ta sənə qalmayıb sözüm
—Tanış olaq!
—Gülçin
—Aysel.
—Bax!
Bu da Ala-bula keçi,
Bu da ki, bığlı pişik.
—Mən də Dünyaqayğıyam.
—Səni çoxdan tanıyıram.
Nağılda görüşmüşük.
Yadımdadır o çağdan.

Dünyanı bölüşmüşük.
Qayğısı sənin olub. ,
Özü də mənim.
—Qoy olsun!
—Dünyaqayğıya bax bir
Dünya qayğısı çəkir.
Bu dünya özümündür,
Mənim yolumdan çəkil.
—Dünyanı istəyirsən?
Özüm, eşit,
Özüm, bil,
Dünya heç kimin deyil.
Bilmirsənsə özün bil!
Mənim üçün daha yaxşı,
Nağıl adım—Dünyaqayğı —
Yerdə adım—Qayğı olsun.
Nə adımı uzun görüb.
Uşaq çaşsın,
Nə də ki, dil yorulsun.
Gülçin, indən belə
Mənə Qayğı de!
Aysel, indən belə
Mənə Qayğı de!

Ala-bula, sən də eşit,
Bığlı pişik, sən də eşit,
Siz də mənə
İndən belə
Qayğı deyin,
Dünyanı verək Özümə,

Görək o dünyanı neynir,
Görək dünya onu neynir.

2

Gülçin,
Aysel,
Ala-bula keçi,
Bığlı pişik
Qayğı,
Özüm
Beləcə
tanış oldular.
Hər səhər obaşdan;
O bu başdan,
Bu o başdan
Oynamaqçın
Çimərliyə yığıldılar.

Özüm elə o gündən
Çimərlikdə ad çıxarqdı.
Yetənə yetdi özü,
Yetməyənə daş atdı,
Bığlı pişiyin tutub
Quyruğunu dartdı,
Gözlərini yaşartdı.
Ala-bula keçinin
Qulağını dişlədi
Lovğa-lovğa yeridi.
Əlləri belində
Belədən-belə getdi.
Nə bildisə elədi.

Soruşdular dedi ki,
«Xasiyyətim belədi!»
Aysel qumdan saray qurdu
Özüm gəlib
Təpik vurub uçurdu-
Çimərliyə yayıldı
Ayselin hay-harayı —
Kim ağlatdı Ayseli? —
Kim uçurtdu sarayı? —
Özüm!
—Nə?
—Kim?
—Özüm!
—Onda ağlama, qızım!
Özün qurub uçurursan,
Bəs, bizi niyə yorursan?

**3**

Çox adam tanımırdı –
Özüm kimdi, nəçidi
Özümü tanıyan
Gülçindi.
Ayseldi,
Ala-bula keçidi,
Bığlı pişik
Bir də Qayğı.
(Gülçin hələ gəlməmişdi)
Qayğı gördü
Aysel dönüb ona baxır,
Qayğı işə qarışdı
Qayğını görüb,

Özüm daban alıb qaçdı.
Özüm belə Özüm idi,
Onun işi uzun idi .

***4***

Nə yaxşı ki,
əvvəlki nağılda
olmayıb Özüm,
Nə yaxşı ki,
O kağız qayıqda
Olmayıb Özüm
Yoxsa Xəzərdə
batardı düzü;
İlkin,
Gülçin,
Aysel,
Ala-bula boz keçi,
Bığlı pişik,
Bir də Dünyaqayğı-
Amma, yox
Necə də gəlir dilim,
O yerdə ki, Qayğı var
Zaval yoxdur bir kəsə,
Yaxın düşməz ora ölüm.
Yəqin, uşaqlar bilir
Qayğının əli
sehrlidir.
Hara çəksə əlini
Orda yaxşılıq bitirir.
Bığı yanan pişiyə

Təptəzə «bığ» bitirir.
Gəmiyə çevirir
Kağız qayığı.
Bir sığalla sağalır
Ala-bula keçinin
Burxulmuş ayağı
Yelkən olur gəmiyə
Gülçinin güllü yaylığı.
hələ nələr, nələr olur...
Qayğının sehrindən
Əriyir dənizin
«yağ» ləkəsi.
Di, gəl burda
Sehr də kara gəlmir,
Özümlə bacara bilmir-.
Sözlə dəyişmir beləsi.
Odur ki,
Özüm dünyada bir kəsi
        Görmür özündən savayı.
Bu işdə Qayğı da,
Sehr də havayı!
Körpə-körpə
Balıqlara
Çəngəl-qarmaq atır o,
Qovuqlara
İynə-sancaq batırır.
Qağayılar
Təngə gəlib əlindən,
İndiyədək bir yaxşı söz
Düşməyibdir dilindən.

Özüm dəcəl,
Özüm paxıl,
Özüm yaman
Özümcüldü.
Özüm deyir
Bu dünyada
Hər nə varsa
Özümçündü.
«Keçi-meçi,
Pişik-mişik nədir ki,
Aysel nəkaradı ki,
Mənim bir sözümü,
Eləyə IKI.
Bircə bu
Qayğı
Kəsib yolumu
Onu kənddən qaçırtsam
Kimsə tutmaz qolumu!»

***5***

Gülçin hardadır, görən
Gözümə dəymir səhərdən
Elə adını çək,
Qulağını bur.
Gülçin gəlir, odur.
Qırçın donu əynində.
Güllü yaylıq çiynində.
Gəlir uşaqlara sarı
Uzaqdan lap uzaqdan
Salamlayır uşaqları.
Özüm birdən

Qopub yerdən
Bir alıçı quş kimi
Qapır çiynindən
Gülçinin
Güllü yaylığını...
Qayqı da görür bunu.
Özüm qaçır,
Gülçin qaçır.
Özüm qaçır qayalığa.
Gülçin durub bir anlıqa,
Nəfəsini dərmək üçün-.
Yenə
Qayğı çatır dada
hamı görür
Sehrin gücünü.
Yaylıq özü burula-burula,
İlan kimi qıvrıla-qıvrıla.
Çıxır əlindən
Özümün.
Özüm döyür özünü.
Güllü yaylıq
Devrə vurur başı üstə
Sanki açıq verir ona.
Uçur göyərçin kimi
Düz Gülçinin yanına.
Özüm yaman acıqlıdır-
Özüm yaman yanıqlıdır
Qayğının əlindən.
Demə, ötən ömründə
Bir gündə

Yeddi yerdə uçurub,
Qaranquş yuvasını.
Göyə qaldırıb
Ətcəbala quşların
Ah-naləsini.
Nağıl—ana,
vaxtdan
Onun sehrini qırıb,
Sındırıb qanadını.
Sındıra bilməyib, amma
İnadını.
Yeddi ildir ki,
Özüm Çəkir öz cəzasını-
Yeddi il də sərasər.
Qayğıdan görür bunu.
Dönüb
Qayğıya baxır
Yenə də peşman-peşman. —
Yaxşı, Qayğı,
Qalsın qulluğunda
Onsuz da düşmən idik,
Olduq bir daha düşmən.
Mənim nağılım mənə.
Qıymayıb sehr-mehr.
Mənim gücüm,
Mənim özüm,
Mənim sehrim hiylədir-

*6*

—İndi ki, belədir!
Yığışın, ay uşaqlar
Dərs verək ona. «hava gəmisi» quraq
Uçub qalxaq havaya
Özümün acığına.
hava «gəmisi» hanı? —
Gülçin, ver yaylığını
Əldən-ələ gəzdi
Gülçinin yaylığı
Baxan dönüb,
Bir də baxır.
İndi bu yaylıq
«Gəmi» olacaq, axı!
Qayğı,
Əvvəl yaylığın
Uclarını düyünlədi.
Bir ucuna Gündoğan
Bir ucuna Günbatan,
Birinə Güney dedi,
Birinə Quzey dedi.
Yaylığın uclarıyla
Danışdı pıçıltıyla-.

Sonra
saçaqlarını
Tumarladı,
Sığalladı o ki var.
Küləkləri çağırdı,
Gəlib durdu sağda

Xəzri,
Solda durdu
Gilavar.
Sonra
Qayğı
Elə göz önündəcə
Yaylığın qulağına
Zərif, incə
Yeddi kəlmə söz deyincə,
Güllü yaylıq
Şişdi-şişdi
İriləşdi
Top oldu,
Bir adama danışsam,
Deyər ki, ağ eləmə
Bu ki, yekə top oldu.
Görməsəydim inanmazdım.
Mən inandım, sən də inan
Bundan böyük möcüzə
Gözləyirəm Qayğıdan.
Yaylıq dönüb top oldu.
Elə öz-özünə
Yerdən qalxıb
Havadanca asıldı,
Yaylıq—hava «gəmi»si
«Ura» qışqırdı birdən
Uşaqların hamısı.

Yaylığın yeri döşəmə.
Saçaqları tavan oldu.
Uclarını düyüm yeri

Dörd dəstəlik sükan oddu.
Dəstəklərə yazıldı;
«Gündoğan.»
«Günbatan.»
«Güney»
«Quzey».

Qayğı ,çəkdi əlini
Güllü yaylığın
Üstündəki güllərə.
Ləçək-ləçək
Kəsildi hər gül.
Güllər yumuldu bir-bir
Güllərin yerindəcə
Bircə qapı açıldı,
Dörd də yumru pəncərə.

Sonra bir anda
Kərpic kəsildi qumdan
Qapının ağzınadək
Hörüldü qum-pilləkan-
—Uşaqlar, gəlin görək!
Əvvəl Gülçin,
Sonra Aysel.
Ala-bula keçi,
Bığlı pişik.
Ən axırda Qayğı
«Gəmiyə» qalxdı.

**7**

Bu il dənizçi İlkin

Türkana gəlməmişdi.
Bu il Xəzərdə yoxdu
Onun kağız qayığı.
Uşaqlar indi daddı,
Bu acı ayrılığı—
Bəs, kapitan kim olsun?
Gülçin kapitan oldu.
Güllü yaylıq onundu.
Ala-bula boz keçi.
Sükan dalına keçdi.
Ondan mahir sükançı
Yoxdur dünyanı gəzsən.
Keşkə ötən səfərdə
Gəmidə olaydın sən.

Aysel yenə də aşpaz?
Yox, yox həkim olacaq!
Hava gəmisində də,
Həkimsiz heç iş aşmaz!
Ötən səfər bişirmişdi;
Şaha layiq,
Südlüsıyıq.
Yeyən olmadı,
Tökülüb qaldı.
Hərə daddı bir qaşıq,
Bığlı pişik yenə də
Oldu yanğınsöndürən.
Qayğı yenə sərnişin!
Sözdür elə sərnişin;
Onsuz da bacarır o,

Gəmidəki hər işi.

**8**

Sükançı Ala-bula
Dəstəyi sağa burdu
Yaylıq—«hava gəmisi»
Uçuşa hazır durdu.

—Qalx!
—Oldu!
Hava gəmisi
Havaya qalxdı.
Gülçin gəmidən
Aşağı baxdı.

Çimərlikdə onları.
Yola salan çox idi.
ha baxdı, ha axtardı,
Özüm Yerdə yox idi.

Gəmi qalxdı, qalxdı, qalxdı
Yüngülləşdi  ucaldıqca
Qalxıb göydə dayandı.
Kənddəki ən uca,
Çinardan uca.
Birdən, yer-yerdən
Qışqırışdı adamlar.
«Ay aman, ay camaat
Ora baxın
Gəminin
Altında adam var».

Gülçin dedi:—Özümdü!
Aysel dedi:—Özümdü!
Qayğı dedi:
«Özü uçan ağlamaz
Dözə bilsən, döz indi».

**9**

«Gəmi»ni sağa-sola
Yellədir şıltaq külək-
Özüm qamarlayıbdır
«Gəmi»ni bərk-bərk.
Qarış-qarış sürünüb,
Dırmaşır pəncərəyə.
«Əli keyisə əgər!»
Gülçin,
Aysel,
Ala-bula keçi,
Bığlı pişik
Yığışıb
Qayğıya dedilər:
«Əli keyisə əkər,
Külək atar yazığı!»

Açıq pəncərədən
Özümü, gəmiyə
Qaldırdı Qayğı.
—Bir küncdə otur!
—Amma, dinc dur!
—Biz səndən qaçırdıq!
—Səkp də qaçırtdıq!
—Yanğın söndürən hanı?
Yaxşı, yaxşı bax tanı

Bu yanğını!
Yanğındır bu dəcəl
Gəl,
Ondan göz-qulaq ol!

Özüm indi-indi
Özünə gəldi
Özünə gələn kimi
Acı-acı dilləndi
Dedi: Qayğı,
Sənə borc olsun, sağ ol!

**10**

Uçdular uzaqlara
Buludların üstü ilə..-
Gözdən itdi
uça-uça ağaclar,
Uzun-uzun tüstülər.
Qaldı aşağıda
Kəndlər, şəhərlər
Gülçin tez-tez
Əmr verir:
—Sağa sür!
—Sola sür!
—Qalx! —En!
—O görünən,
Nədir görən?
Ora sür.
Sükançı
Ala-bula
Diqqətlə baxır yola.

Yanğın söndürən pişik,
Əsgər tək çəkir keşik,
Qaralayıb
Özümü
Çəkmir ondan gözünü-
Bir bucağa qısılmış
Özüm də ona baxır:
«Əlimə düşəcəksən
Haçansa əvvəl-axır»
Pıçıldayır ürəyində.
Qayğı, Özüm.-.
Əziz övladlarını
Quçaqladı Şirvan düzü.
Qonaqların ayağı altda
yaşıl xalı döşədi.
Gəzdikləri hər yeri
Gül-çiçəklə naxışladı.
Uşaqlara yemlik, turşəng
Keçiyə yarpaq,
Pişiyə qaymaq çiçəyi
bağışladı.

Pişik küsdü:
«Çiçəyi neynirəm mən
Əsil qaymaq istəyirəm».
Uşaqlar yaxşı bilir ki,
Bığlı pişik
Ayselindi.
Bığlı pişik
Yazıq-yazıq
Gəlib sığındı

Aysələ.

Aysel dedi:

«Səbir elə,

Bu çölün düzündə,

sənə hardan tapım qaymağı».

Köməyə çatdı

Qayğı Bağa yarpağı tapıb

Qopartdı bir yarpağını.

Dedi:—Bu nimçə!..

Ovcuna yığıb sıxdı.

Yemliklərin saplağını

Dedi:—Bu südcə!

Qaymaqdan da dadlıdır.

Yemliyin südüdür, bu!

Ha yığdılar

doymadılar.

Hərə bir yana,

Səpələndilər yenə

Yemlik yığmağa.

Özüm yemlik yemədi,

«Keçi deyiləm» dedi.

Vaxtını sərf elədi,

Xanım böçəyi yığıb

Havaya uçurmağa.

«Nənəm uç,

Nənəm uç

Uç, arxanca

Mən də uçum.

Qoy hamı bilsin.

Yoxdur mənim
Özümlükdən başqa~suçum:

***12***

Yolçu yolda gərək!
«Gəmi əhli,
                elə yemlik yeyə-yeyə
Qayıtdı «gəmi»yə.
Yığıldı asma pilləkan
Sükanı çevirdilər,
İndi başqa güneyə;
Günbatandan quzeyə.
Gəmi az qala
Qalxmışdı göyə-
Aysel, baxdı pəncərədən
Gördü uzaqda
Bir çanaqlı bağa
Çevrilib arxası üstə.
Çapalayır, əl-qol atır
Əgər,
              uçub getsələr
              bu düzdə
Kim onun dadına çatar?!
Otlarmı?
Çiçəklərmi?
Zərif kəpənəklərmi?
—Özümün işidir bu!
—Sənə demədim, dinc dur!
—Ataq bura Özümü,
Azdıraq küdrüdə

İtirək izini.
Qayğı dedi:
—Bəsdir daha,
Bir də belə iş tutsan
Kimsəsiz bir cəzirədə
Qalacaqsan tək-tənha.
Aysel qaçıb qaldırdı
Çanaqlı bağanı,
Basdı bağrına.
Öpdü çanağının
Qara xalından.
«Bəlkə, bu yaz daş bildiyim,
həmin o çağa bağasan.
Mənim əziz bağacığım—
Qara danış-
Mənim kiçik qardaşım.
harda olsam
Yadımdasan.
Bu dəfə gəl,
Özümü də bağışla,
Bizimlə çıxıb yola».

***13***

Aşağıda qaldı
Bir parça küdrü,
Bir ovuc torpaq,
Allı-küllü irəmə.
Bayaq—
            durduqları yer.
Daha da laləzar

Göründü göydən.
Çiçəklər topa-topa,
Kollar dən-dən.

Demə, uzaqdan.
daha yaxşı görünürmüş
bütöv Şirvan.
Uzaqdan baxmaq üçün,
Gərək göyə ucalasan.
Yalnız ucalmaq üçün.
Gəlib dünyaya insan.

O kanallar qazılıb ki,
Torpaq şorakət olmasın.
O dirəklər düzülüb ki,
Qaranlıq bir kənd qalmasın.

Çəmənlər gül açıb ki,
Dərəsən bənövşəni sən.
O yanarqaz tapılıb ki,
Qırmayasan meşəni sən.
O körpülər salınıb ki,
Səni sellər aparmasın
Əsa götür, çarıq geyin, dünyanı gəz
Belə bir yer taparmısan?!

Çörəyi bol,
Pambığı bol,
Meyvəsi bol, qoca
Şirvan.
Daha gözəl görünürmüş
ucalıqdan.

Sərin meh əsir yerdə.
Yarpaqlar xışıldaşır.
Aynaüzlü göllərdə
Sonalar qaqqıldaşır.
Ora bax, o dağın qaşı
Sanki qaşdır çatılıb.
O şərid nədir orda
Göyə kəmənd atılıb?
—Kəmənd deyil,
Ağsu dolaylarıdır—
Dağa dolanıb,
Donub qalıb.
Torpaq—dama taxtası
Dama-dama,
Yaşıl dama,
Qara dama.
Tarla meşə, bağ,
Şum yeri—
Əllə çəkilib elə bil.
Şəkil görünür adama.
İrəmədən qalxdığımız
bir saatdı.
O görünən Pirsaatdı.
Babadağın təmiz qarı
Əriyib qovuşur ona.
Babadağın dişüşüdən
bulaqları
Axır onun məcrasına.
Amma, nə fayda,
Quruyur yayda.

Bir içim su tapılmır,
Bu boyda çayda.
hardasa batır..
Çatmır dənizə...
Qayğı gərəkdir
O şirin çayı,
O sərin çayı,
O itkin çayı
Yerin altından
Çıxartsın üzə.
Özüm durdu ayağa
—Ay qoydum, ha!
—Sənə nə düşüb-
Yoxsa,
Çaydan xəbərin var?
—Yox/
—Bəs bu təzə köllər,
dəryaçalar,
Kimin zəhmətidir, de!
—Bilmirəm!
—Onda, bil!
Torpağa qayğı gərəkdir.
Qayğı,
havadır,
sudur,
çörəkdir.
Qayğı çoxaldıqca,
torpaq ucalar!
—Mənə nə var.
—Dərələri, dağları

Zolaq-zolaq bürüyən
Abad üzüm bağları
O bağların şirin barı
Kimin zəhmətidir, de!
—Bilmirəm.
—Qayğının!
—Bunun?
Özüm hirsindən sıxdı
Ovcundakı böcəkləri.
«—Mən Qayğıdan qaçıram hey
Qayğı məndən əl çəkməyir».

«Gəmi» yerə enəndə,
Bayaqkı irəmədə,
Demə, Özüm yığıbmış
Xeyli Xanım böcəyi.

«Hey sıxıram, sıxıram
Çıxmır bunun cecəyi».
Bilmirəm o kim idi,
«Nənəm uç»a inək dedi.

Əgər inəkdirsə bu
Hey sağıram, sağıram,
Hanı bəs, bunun südü?
—Böcəkləri,ver bura!
—Vermirəm!
—Sənə neyləyib, axı
Uşaqların «Nənəm uç»u,

Gözəlliyi qoruyur o,
Mənim üçün, sənin üçün,
Yarpaq yeyən
Cücülərin qənimidir «Nənəm uç».
Torpaq yeyən dərmanların
Acıların qənimidir «Nənəm uç».

Səninmidir «Nənəm uç?»
Mənimmidir «Nənəm uç?»
Bəlli bil ki,
Dünyanındır, ver bura!
—Zəhləm gedir dünyadan...
Zəhləm gedir dünyada
Hər cür cücü-mücüdən
Gücüm çatsa
Qıraram hamısını mən.

Zəhləm gedir
Gülçindən də,
        Ayseldən də,
        Ala-bula keçidən də-
Bığlı Pişikdən də,
Lap səndən də—
Zəhləm gedir Qayğı!
Siz çox, mən tək!
Nola!
Yırğalanmaya gəmi,
Aman verə külək.
Sizi bir-bir atam yerə
Pəncərədən bax beləcə!

Deyib,

Pişiyə bir təpik,
Keçiyə bir yumruq,
Atdı özünü
Pəncərənin ağzına.
Böcəkləri verdi yelə.
Böcəklərin göz yaşı.
Baha başa gəldi ona.
Pəncərədən
Əyiləndə
Yuvarlandı özü də.
Böcəklərin dalınca-
Uşaqlar handan-hana
Özlərinə gəlincə.
Gec idi... Vay-vay..
Gülçin dedi: Ay haray
Aysel dedi:
Ay haray
Keçinin də,
Pişiyin də ürəyi yandı.
Qayğı əmr elədi,
«Gəmi» dayandı.

***15***

Özüm göldə neçə dəfə
Kəlləmayallaq  aşdı.
Axırda başı üstə
Bir gölməçəyə düşdü.
Gölməçə aşdı-daşdı
Qurbağalar
Quruldaşdı.
«Bizə Özüm lazım deyil,

Biz elliklə yaşayırıq.
Biz gölməçə sakinləri—
Qur-quruq!
Qur-quruq!
«Çıx, çölə!»
«Çıx, çölə!»
«Çıx, çölə!»
Pişik baxdı Ayselə,
Keçi baxdı Gülçinə,
Gülçin baxdı Qayğıya
gəmi əhli az qaldı,
Sevincindən ağlaya.
—Nə yaxşı qorxu keçdi,
—Nə yaxşı suya düşdü.

Hava «gəmisi»
Türkana yön aldı.
Gölməçəli dərədə
Özüm tək qaldı.
Özüm çıxıb, gölməçədən
Hələ qurutsun özünü.
Mən də kəsim nağılımı,
Burda saxlayım sözümü.
Gün Gələr,
Görüşərik bir də!
Başlayarıq nağılı
Qırıldığı yerdən.
Uşaqlar, bu dəfə
Göydən alma düşmədi.
Göydən yerə

Özüm düşdü
Üzü-gözü lığa batdi
Qurbağalar gülüşdü

## KİTABIN İÇİNDƏKİLƏR

Torpaq nağılı

Torpaq nağılı …………………….. 3
Bal dadan balış ..................... 6
Aydan………………………………6
Əlifba dərsində ........................ 7
Riyaziyyat dərsində ................... 7
Kilimçi ................................. 8

**Üç qardaşın bir bacısı**

Üç qardaşın bir bacısı……………………………..12
Balaca ana ………………………………………12
Bir qutu noğul..........................................................14
Aysel kənddə ………………………………………17
Göydən alma düşmədi ***(müasir nağıl)***…………..........25

***KİÇİKYAŞLI MƏKTƏBLİLƏR ÜÇÜN***

Fakrət Sadıq (Sadıqov Fikrət Abbas oğlu)

Rəyçi filologiya elmləri namizədi

**Zahid Xəlil**

Redaktoru *Musa Ələkbərli*. Rəssamı *S. Şatikov*.

Bədii redaktoru *N. Rəhimov*. Texniki redaktoru *X. Səfərova*.

Korrektoru *V. Həsənov*.

İB № 1037

Yığılmağa verilmiş 04. 06. 82. Çapa imzalanmış 29. 09. 82, FQ 19020. Kağız formatı 70X90. Mətbəə kağızı № 3. Yüksək çap üsulu. Qarnitur literaturnıy. Şərti ç/v 1,90. Rəngli şərti ç/v 2,19. Uçot nəşr. v. 2,0. Tirajı 7000. Sifariş № 2123. Qiyməti 15 qəp.

Azərbayçan SSR Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi.

«Gənçlik» nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4,

«Yeni kitab» mətbəəsi, Bakı, Ə. Tağızadə küçəsi, 4.